## İdman xəbərləri

# «Qəbələ»nin növbəti qələbəsi



Topaz Premyer Liqasının XIX turu "Qəbələ" üçün əlamətdar olub. "Qırmızı-qaralar" Azərbaycan çempionatlarının yüksək dəstəsində 150-ci qələbəsini qazanıb. Yubiley "Kəpəz"lə Gəncədəki görüşə təsadüf edib. 1:0 hesablı qələbə Premyer Liqadakı 355-ci matçda qeydə alınıb. Bu qələbələrdən 84-ü ev, 66-sı səfər qarşılaşmalarında qazanılıb.

# Şahmat üzrə rayon turniri

5 mart ölkəmizdə Bədən Tərbiyəsi və İdman Günüdür. Bu tarixin Azərbaycanda bədən tərbiyəsi və idman günü kimi qeyd olunması təsadüfi deyil. Məhz 1995-ci il martın 5-də ulu öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşüb, İdman Fondunu təsis edib, bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlini qoyub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı tezliklə öz müsbət nəticəsini göstərərək Azərbaycanı dünyada idman ölkəsi kimi tanıdıb.

Ənənəvi olaraq hər il Azərbaycanda bu tarix təntənə ilə qeyd olunur. Qəbələ Rayon Gənclər və İdman İdarəsi müvafiq tədbirlər planına əsasən martın 5-də kişilər arasında şahmat üzrə rayon birinciliyi keçirmişdir.

Turnirin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov iştirakçılara bu günün yaranma tarixi barədə məlumat verərək bildirmişdir ki, həmin tarix Prezident İlham Əliyevin "Bədən tərbiyəsi və idman gününün təsis edilməsi haqqında" 4 mart 2005-ci il tarixli Sərəncamına əsasən qeyd edilir. Həmçinin birinciliyin keçirilməsində məqsəd yarış iştirakçılarının idman ustalıqlarının artırılması və təkmilləşdirilməsini təmin etmək, idmanın kütləviliyinə nail olmaqdan ibarətdir.

Turnirdə rayonun kənd, qəsəbə və müxtəlif idman kollektivlərindən olan 20-dək şahmatçı dairəvi sistem üzrə gərgin oyun nümayiş etdirmişdir.

Gərgin idman mübarizəsi şəraitində keçən birinciliyin yekununda Eldar Səfərov I yerə, Araz Alməmmədov II yerə və Sahib Hüseynov III yerə layiq görülmüşlər. Qaliblərə gənclər və idman idarəsinin diplom və xatirə hədiyyələri təqdim edilmişdir.

**Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

## Həkim məsləhəti

# Körpə uşaqları nəzarətsiz qoymayın

Uşaqların ətraf mühiti tanımasının və ətraf mühitlə əlaqə qurmasının bir yolu da əlinə keçən hər bir əşyanı ağzına aparmasıdır. Amma, bu maraq bəzən ağıla gəlməyəcək böyüklükdə yad cisimlərin udulmasına səbəb olur. Bu yad cisimlər tənəffüs və ya həzm sisteminə daxil olaraq ağır nəticələrə, hətta ölümə də səbəb ola bilər. Yad cisim udan uşaqların 84 faizi məktəbəqədər azyaşlı uşaqlardır. Ən çox udulan yad cisim metal pullardır. Yad cisimlər qida borusunda qalan zaman udqunmanın pozulması, ağızdan çoxlu miqdarda tüpürcəyin gəlməsi, öyəmə, qusma, boğazda tıxanma hissi, yeməkdən imtina halları baş verir. Amma, yad cisimlər qida borusunda qalanda bəzən heç bir əlamət olmaya bilər. Xüsusilə metal pul udmuş uşaqların 14-44 faizi simptomsuz ötüşür. Tənəffüs sisteminə düşmüş yad cisimlər daha kəskin şikayətlərə, öskürəyə, qızdırmaya, xışıltıya səbəb olur. Bəzən müalicəyə tabe olmayan xışıltı, səbəbi bilinməyən öskürək tənəffüs sistemində yad cisim olduğuna şübhə yaradır.

Adətən dəyirmi yad cisimlər həzm sistemindən 4-5 gün içərisində xaric olur. Praktiki olaraq mədəyə düşən yad cisimlərin 95 faizi orqanizmdən xaric olur. Batıcı cisimlər isə bir nöqtədə 5-7 gündən artıq qalarsa cərrahi əməliyyat tələb olunur. İlk 24 saat müddətində müraciət edən uşaqlarda ciddi problemlər 3 faiz ola bilər.

Yad cisim udarkən uşaqlar mütləq ixtisaslaşmış tibb müəssisələrində müayinədən keçirilməlidir. «Çöpçülər»ə, ara «həkimləri»nə və digər ixtisas sahiblərinə müraciət etmək fəsadlara yol aça bilər.

**Elnur İSGƏNDƏROV,**
**müalicə diaqnostika mərkəzinin uşaq cərrahı.**

# "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının növbəti mərhələsi başlayır

Artıq beşinci ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb.

Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

«Ölkəmizi tanıyaq» maarifləndirici tur aksiyası çərçivəsində rayonumuza səfər edəcək şagirdlər bu dəfə də Qəbələnin füsunkar təbiəti, tarixi abidələri, yeni tikililəri, adət və ənənələri ilə tanış olacaqlar.

Səfər çərçivəsində onlar muasir turizm infrastrukturuna malik Qəbələdə «Tufandağ» xizəkçilik Kompleksində, qədimliyi ilə fərqlənən Qəbələ Tarix-Mədəniyyət Qoruğunda, udilərin kompakt yaşadığı Nic qəsəbəsində olacaqlar. Eyni zamanda şagirdlər rayondakı sənaye müəssisələrinə, əsrarəngiz Nohur gölünə də baş çəkəcəklər.

**Vüsal SƏMƏDOV,**
**RİH-nin baş məsləhətçisi.**

# Bilirsinizmi?

Tütünün Vətəni Amerika qitəsidir. Burada təxminən 6 min il əvvəl tütündən tstifadə etməyə, onu əkib becərməyə başlayıblar.

Avropa qitəsinə tütün 500 il əvvəl ispan səyyahı Xristofor Kolumb tərəfindən gətirilib. Tütünü səyyaha hindular hədiyyə ediblər.

Avropalılar tütünlə tanışlıqdan cəmi 20-25 il sonra kultivasiya yolu ilə onu əkib becəriblər.

1620-ci ildə İspaniyada ilk tütün emalı zavodu istifadəyə verilib.

Tütündən istifadə etdiyinə görə ilk cəzanı onu Avropaya gətirənlərdən biri-- Xristofor Kolumbun ekspedisiya dəstəsinin üzvü olan Rodriqo Deres alıb. Belə ki, ispanlar onun ağzından çıxan papiros tüstüsünü görəndə düşünüblər ki, içinə şeytan girib. Ona görə də Rodriqo inkivizasiya (din) məhkəməsi tərəfitndən həbs olunmuşdur.

**Topladı: Zəhra ALXASLI.**

## Faydalı bitkilər

# Cincilim bitkisi

**Botaniki təsnifatı:** Cincilim bitkisi Qərənfilçiçəklilər fəsiləsindəndir. Azərbaycanda 5 növü yayılmışdır. Dünyada 100-dən çox, Qafqazda isə 8 növü məlumdur. Gövdəsinin hündürlüyü 10–30 sm olan birillik və yaxud ikiillik ot bitkisidir. Çiçəkləri xırda olub ağ, meyvəsinin toxumu isə tünd qəhvəyi rəngdədir. Çiçəklənməsi iyun ayından sentyabra kimi davam edir. Bitkinin ömrü 3–4 həftə çəkir. Azərbaycanın aşağı dağ ətəyindən subalp qurşağına qədər demək olar ki, bütün rayonlarında cincilimə yabanı halda rast gəlinir. Cincilim yaşayış evlərinin yaxınlığında, bostanlar, bağçalar, kanalların ətraflarında, nəm yerlərdə, çay kənarlarında və yolların qıraqlarında bitir.

Təbabətdə ən çox istifadə olunan cincilim növü orta cincilimdir.



**Orta cincilim:** Birillik və yaxud ikiillik ot bitkisi olub, 10–30 sm hündürlüyündədir. Yarpaqları qarşı–qarşıya düzülən yumurtavari formadadır. Hamaşçiçəkləri yalançı–dixotomdur. Qutucuğu yumurtavari və yaxud uzunsovdur. Bitki aprel ayından sentyabra kimi çiçəkləyir.

**Tətbiqi:** Cincilimdən hazırlanan preparatlar vitamin, bakteriosid, soyuqdəymə, damar genişləndirmə, qan təzyiqini aşağı salma, sidikqovucu, ödqovucu, qankəsici, yarasağaldıcı və s. xüsusiyyətlərə malikdir. Azərbaycan xalq təbabətində cincilimin su ilə qarışdırılmış şirəsi mədə-bağırsaq xəstəlikləri zamanı ağrıkəsici kimi işlədilir. Amerika əczaçılıq firmalarının hazırladığı dərman preparatı maddələr mübadiləsinin pozulması, xüsusilə şəkər xəstəliyi zamanı, ciyər və dəri xəstəliklərində–qaşınma, sızanaq, səpmə, əsəb, çiban, ekzema, artrit zamanı oynaqların iltihabı və s. xəstəliklərdə geniş tövsiyə edilir. Qızdırmanı salmaq, orqanizmdə qanın keyfiyyətini yaxşılaşdırmaq və sakitləşdirici kimi də böyük təsir gücünə malikdir. Cincilimdən ərzaq məhsulu kimi də geniş istifadə olunur. Əsasən qutab və dovğada işlədilir.

## İTMİŞDİR

Azərbaycan Respublikası Baş Dövlət Yol Polisi İdarəsinin 7 saylı Yevlax rayonlararası qeydiyyat imtahan şöbəsi tərəfindən 17 aprel 2007-ci il tarixdə Ağdaş rayonunun Yenicə kənd sakini **Muradov Ramis Haris oğluna** verilmiş və etibarnamə əsasında Qəbələ rayonunun Hacıalılı kəndində yaşayan Zeynalov Rövşən Xasəmməd oğlunun idarə etdiyi VAZ-21060 markalı 03 BE 143 dövlət qeydiyyat nişanı olan avtomaşına məxsus AA seriyalı 909017 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Bum qəsəbə (əvvəlki kənd )sakini **Nəsibov Əlimirzə Nuh oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 620 F nömrəli (kod 40800038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Uludaş kənd sakini Məmmədov **Ümər Məmməd oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 176 A nömrəli (kod 40615038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Böyük Pirəli kənd sakini **Əliyev İnqilab Nizami oğluna** məxsus VAZ 21150 markalı 90 XU-615 dövlət nömrə nişanlı avtonəqliyyat vasitəsinin 16 iyun 2017-ci il tarixli AC seriyalı 971526 nömrəli **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Emin Baratoğlu, Rasim Yaqubov, Eldar Quliyev, Əlövsət Aləmmədov **Mehrəli Mehrəliyevə** bacısı

**SİYARƏ İSMİ QIZININ**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.


«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56



Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1799